# Azərbaycandan müharibə sonrası mesajlar: tənqidi təfsir

written by Vicken Cheterian Viken Çeteryan

*Bu yazının əvvəlki versiyası 29 aprel 2021-ci ildə ADA Universiteti üçün bir veb-seminarda təqdim edilib. Mənə bu fürsəti verdiyinə görə ADA Universitetinə və yazılarımı nəşrə qəbul etdiyinə görə BAİ redaksiya heyətinə təşəkkür edirəm.*

2020-ci il müharibəsindən sonrakı dövrdə Azərbaycan hakimiyyətinin verdiyi siyasi mesajları necə oxuya bilərik? Azərbaycanın siyasi diskursunda hansısa dəyişiklik varmı, yoxsa vəziyyət müharibədən əvvəlki dövrün davamıdır? Dəyişikliyi və davamlılığı necə kontekstləşdirə və təhlil edə bilərik? Bu diskurs analizi cəhdində ikinci, daha təməl bir sual var; sualı belə ümumiləşdirmək olar: Azərbaycan hakimiyyəti güc siyasətindən uzaqlaşıb öz iradəsini de-fakto Dağlıq Qarabağ dövləti və Ermənistana yeritməkdən əl çəkərək 33 illik erməni-azərbaycanlı münaqişəsini həll etmək üçün diplomatiyaya üz tutur, ya yox?

Bu debat bir sıra səbəblərə görə vacibdir. Birincisi, Azərbaycan hərbi qalib olaraq meydana çıxdı, buna görə də bu nəticənin siyasi və diplomatik sahələrə necə təsir etdiyini öyrənməliyik. İkincisi, Ermənistan təkcə hərbi məğlubiyyətə uğramadı, həm də iyunun 20-nə parlament seçkiləri təyin edildiyi üçün öz daxili siyasətinə döndü. Nəhayət, bu gün Azərbaycan hakimiyyəti tərəfindən edilən seçimlər Ermənistandakı siyasi vəziyyətə təsir göstərə bilər və bu münaqişənin növbəti fəslinin necə olacağını müəyyənləşdirə bilər.

Bu suallara aşağıdakı şəkildə cavab verəcəyəm. Əvvəlcə müharibə zamanı və müharibədən sonrakı dövrdə rəsmi ünsiyyət forması ilə bağlı bəzi mülahizələr təqdim edəcəyəm. Sonra

müsbət mesajlara, onların məzmununa və məhdudiyyətlərinə keçəcəyəm. Nəticədən əvvəl isə son hissədə Azərbaycan hakimiyyəti tərəfindən verilmiş mənfi və qeyri-müəyyən, lakin müzakirə edilməli olan cavabsız sualları müzakirə edəcəyəm.

## Müharibə zamanı və sonrası ünsiyyət: Prezident Administrasiyasının mərkəzi rolu

Müharibə zamanı Azərbaycan dövlət nümayəndələrinin ünsiyyət tərzinə yenidən baxsaq, mərkəzi rolu Prezident İlham Əliyev və onun Administrasiyasının oynadığını görərik. Əliyev yalnız siyasi mesajı deyil, həm də operativ hərbi məlumatları çatdırırdı. Məsələn, davam edən əməliyyatlar, xüsusilə də hərbi irəliləyiş və yeni ərazilərin ələ keçirilməsi barədə məlumatlar Əliyevin tvitter hesabından ötürülürdü. Prezidentin köməkçisi Hikmət Hacıyev də operativ məlumatları çatdırmaqda fəallıq göstərirdi.

**Ilham Aliyev** @presidentaz · 4 Oct 2020

Сегодня от оккупации были освобождены села Кархулу, Шюкюрбейли, Черекен, Дашкесан, Хоровлу, Махмудлу, Джафарабад, Юхары Маралъян, Деджал. Да здравствует Азербайджанская армия! Карабах – это Азербайджан!

2K 2.2K 16.4K

**Ilham Aliyev** @presidentaz · 4 Oct 2020

Today Karkhulu, Shukurbeyli, Cherekan, Dashkasan, Horovlu, Mahmudlu, Jafarabad, Yuxari Maralyan and Dejal settlements of the Jabrayil district have been liberated from occupation. Long live Azerbaijan's Army! Karabakh is Azerbaijan!

1.2K 3K 21K

**Ilham Aliyev** @presidentaz · 4 Oct 2020

Сегодня Азербайджанская армия освободила от оккупации город Джебраил и несколько сел района. Да здравствует Азербайджанская армия! Карабах – это Азербайджан!

2.5K 3.3K 24.8K

**Ilham Aliyev** @presidentaz · 4 Oct 2020

Today Azerbaijan's Army has liberated from occupation the city of Jabrayil and several surrounding villages. Long live Azerbaijan's Army! Karabakh is Azerbaijan!




Bu vəziyyət müharibə dövründə erməni tərəfinin ünsiyyəti ilə müqayisə edilə bilər. Baş Nazir Nikol Paşinyan daha çox siyasi məsələlərə münasibət bildirirdi, hərbi əməliyyatlarla bağlı ətraflı məlumatın ictimaiyyətə çatdırılması isə Müdafiə Nazirliyinin nümayəndələrinə həvalə edilmişdi.

İki ünsiyyət tərzi arasındakı fərq siyasidir: Əliyev bütün hərbi əməliyyata şəxsən rəhbərlik etdiyi mesajını ötürürdü və hərbi nəticənin siyasi faydalarını yığırdı. O, həm də hərbi əməliyyatların gözlənilən nəticəni verməməsi halında öz hakimiyyətinin stabilliyini təhlükəyə atmaq riskini götürürdü.

Müharibədən sonra ünsiyyətin daha çox Əliyevin çıxışlarında cəmləşdiyi görünür: siyasi mesajları yalnız Əliyev ötürür, Hacıyevın isə müharibə bitdikdən sonra fəallığı azalıb. Buna görə də Azərbaycan rəhbərliyinin müharibədən sonrakı mesajlarını başa düşmək üçün Əliyevə və onun *tviter* sosial media hesabına diqqət yetirmək lazımdır. Digər iki hadisəni də nəzərdən keçirəcəyəm: birincisi, Əliyevin 10 dekabr 2020-ci il tarixli *Zəfər Paradı* nitqi, ikincisi isə onun 13 aprel 2021-ci

il tarixində ADA Universitetinin *Cənubi Qafqaza yeni baxış* konfransındakı çıxışı və çıxışdan sonrakı uzun müzakirəsi.[1]

Rabitə baxımından Azərbaycan prezidentinin simasında simvolik gücün belə cəmləşməsi və 10 dekabr 2020-ci il tarixində Bakıda keçirilən parad zamanı hərbi qələbənin məcazi mənada bölüşdürülməsi bir-biri ilə uyğun gəlmir. Qələbəni qeyd etmək üçün Əliyev kürsüdə tək dayanmadı, kürsünü türkiyəli həmkarı Ərdoğan ilə paylaşdı. Bu simvolizmin daha da öyrənilməsinə ehtiyac var; bu, Azərbaycanda Türkiyənin artan təsirini göstərə bilər.




**Müsbət mesajlar**

Xarici siyasət məqsədi ilə müharibədən sonra Azərbaycan və Ermənistan hökumətləri arasında gizli və ya bir qədər açıq danışıqların yeni mərhələsini gözləmək mənim üçün ağlabatan görünürdü. Daxili siyasət məqsədləri üçün isə əksinə, Azərbaycanda milliyyətçiliyi gücləndirən və qələbədə təkid edən militarist təbliğatın davam etməsini, hakimiyyətin mövcud şaquli güc strukturunu gücləndirməsini gözləmək ağlabatan idi. Sual yaranırdı ki, bu iki təzyiq arasında Azərbaycan hökuməti

müharibədən sonrakı siyasətini necə quracaq və iki hökumət arasında danışıqların yeni mərhələsi nə vaxt başlayacaq?

Azərbaycan rəhbərliyindən müsbət mesajlar gözlədiyimdən tez gəlməyə başladı. Ən müsbət mesaj Azərbaycan rəhbərliyi və konkret olaraq Əliyev tərəfindən təkcə “sülh” deyil, “davamlı sülh”[2] və “gələcək barışıq” [3] kimi ifadələrin təkrarlanmasıdır. Bu, qısamüddətli imtiyazlar deyil, Ermənistanla uzunmüddətli sabitlik məqsədilə Azərbaycan tərəfinin müəyyən güzəştlərə gedə biləcəyini göstərir.

Digər müsbət mesaj gələcək iqtisadi əməkdaşlığa aiddir. Bu yaxınlarda Azərbaycan ərazisindən keçən Rusiya qazı Ermənistana göndəriləcək. Əlavə olaraq, təkcə Ermənistan və Azərbaycanın deyil, həm də şərqi Türkiyənin iqtisadiyyatı üçün əsl təkan olacaq bütün blokadaların qaldırılması müzakirə edilir.

Əliyevin üçüncü müsbət mesajı vətəndaş cəmiyyətləri arasında dialoq çağırışıdır. Bu, yalnız Qarabağ münaqişəsi və Ermənistan-Azərbaycan münasibətləri üçün yaxşı bir xəbər deyil, eyni zamanda Azərbaycan üçün də yaxşı xəbərdir. Çünki tarixi təsadüf nəticəsində müstəqil Ermənistan və Azərbaycanda ortaya çıxan milli kimliklərin təməl daşı olan etnik-ərazi münaqişəsini yalnız iki lider arasındakı siyasi razılaşma yolu ilə həll etmək mümkün deyil. İki cəmiyyətin daha geniş təbəqələrinin münaqişənin həllinə yönəlmə prosesində iştirakı çox vacibdir.[4] Digər tərəfdən, Azərbaycanda siyasi təzyiqlər və müxalif fikirli şəxslərin, jurnalistlərin və insan haqları müdafiəçilərinin həbsi davam edərsə, Ermənistan və Azərbaycan vətəndaş cəmiyyətləri arasında dialoq qurmaq mümkün deyil. Burada xarici siyasət daxili siyasətlə üst-üstə düşür və mən bu məsələdə daha az nikbinəm, çünki müharibədən sonra Azərbaycandakı siyasi tendensiyalar demokratik azadlıqların hüdudlarını genişləndirmək əvəzinə gücün daha çox mərkəzləşdirilməsinə yönəlir. [5]

**Mənfi mesajlar**

Üç əsas mənfi mesaj təhlükəsizlik, kimlik siyasəti və 1915-ci il Erməni soyqırımı məsələsinə aiddir.

Birincisi, Azərbaycan hakimiyyətinin ən mənfi mesajları əsirlikdəki 200-ə yaxın erməni əsgərin hələ də *terrorçu*[6] adlandırılması və ötən ilki 9 noyabr razılığına baxmayaraq əsirlərin qaytarılmamasıdır. Bütün digər müsbət jestlər məhbuslarla bağlı sual həll olunmadıqca əhəmiyyətini itirir. Göründüyü kimi, Azərbaycan hakimiyyəti əsirləri bazarlıq üçün öz əlində saxlayır. Azərbaycanın əsirlərin müqabilində nə istədiyini bilmirəm, amma məncə, bu siyasətin uzunmüddətli ziyanı Azərbaycanın əldə edə biləcəyi qısamüddətli faydalardan daha çoxdur.

Girovlar məsələsinin həll olunmaması ümumilikdə müharibədən sonrakı təhlükəsizlik məsələsi ilə əlaqələndirilir. Ermənistan – və de-fakto Dağlıq Qarabağ – hakimiyyətlərinə ötürülən mesajlar davamlı sülh məqsədilə münaqişə tərəfləri arasında danışıqlara çağırış kimi deyil, təhdid kimi oxuna bilər. Məsələn: Əliyev 2020-ci il müharibəsindən sonra Ermənistanın "qisas" yolunu seçməməli olduğunu təkrarlayır. O, üçüncü tərəflərə də Ermənistanı silahlandırmamaq barədə xəbərdarlıq edir. Amma eyni zamanda, Azərbaycan 2020-ci ilə nisbətdə 2021-ci il üçün öz hərbi xərclərini 16,3% artırır.[7]




Əgər Azərbaycan revanşist qüvvələrin Ermənistanda hakimiyyətə gəlməsini istəmirsə, əsirləri qaytarmaması və öz hərbi xərclərini artırması bu məqsədə çatmağın ən yaxşı yolu deyil. Azərbaycan yenidən silahlanmağa qərar verərsə, Ermənistandan da eynisini gözləmək ağlabatandır.

Siyasi olaraq, Azərbaycan Qarabağ münaqişəsinin bitdiyini və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin gələcək statusu ilə bağlı müzakirə ediləcək bir şey olmadığını deyir.[8] Bu mövqenin əksinə olaraq, bu məsələ ilə birbaşa maraqlanan Ermənistan və Rusiya hakimiyyəti Dağlıq Qarabağın statusunun hələ həll edilməli olduğunu israrla qeyd edirlər. Əlavə olaraq, ATƏT-in digər iki həmsədri – Fransa və bu yaxınlarda ABŞ da münaqişənin siyasi həllinin vacibliyini vurğulayır. Status və siyasi tənzimləmə barədə danışmağın hələ tez olduğu açıq olsa da, Azərbaycan siyasi razılığa gəlməməkdə israr edərsə, beynəlxalq səviyyədə təcrid oluna bilər.

İkincisi, Azərbaycan mədəni irs məsələsindəki mövqeyini dəyişdirməlidir. Bu barədə çox şey deyilib və yazılıb, yalnız iki fikir əlavə edəcəyəm. Qarabağdakı erməni monastırlarına nəzarət etmək üçün Qafqaz-Albaniya tarixini və xüsusilə çağdaş Udin mədəniyyətini ermənilərə qarşı *silahlandırmağı* absurd

hesab edirəm. Qafqaz Albaniyası tarixi və mədəniyyəti haqqında elementar məlumatı olan hər kəs onların erməni tarixi və mədəniyyəti ilə simbiyotik əlaqədə olduğunu bilir. Bu yaxın əməkdaşlıq, harmoniya və davamlılıq keçmişini müasir siyasət üçün istifadə etmək absurddur. Daha da əhəmiyyətlisi, Azərbaycanda yaşayan 4 minə yaxın udinlər bir zamanlar bugünkü Azərbaycan ərazilərində çiçəklənən Qafqaz Albaniyası mədəniyyətinin canlı yadigarıdır. Onların siyasi mübarizələrdə istifadə edilməsi udin icmasını deformasiya və hətta məhv etmək təhlükəsi yaradır. Udinlərin və bənzər azlıq icmalarının qorunması dövlətin vəzifəsidir.

Bu yaxınlarda Bakıda açılan qəribə, irqçi[9] Hərbi Qənimətlər Parkı böyük bir problemdir. Bu, yalnız bunu görən ermənilər üçün problem deyil, həm də xaricdə Azərbaycan üçün piar (PR) fəlakətidir, çünki 27 sentyabrda hərbi əməliyyatlara başlamağa haqq qazandırmaq üçün istifadə olunan "beynəlxalq hüquq"[10] ilə bağlı bütün arqumentlərin nə qədər boş olduğunu və bunun etnik münaqişə olduğunu göstərir. Ən əsası bu park gənc azərbaycanlıların təhsili üçün fəlakətdir. Parka gedəcək uşaqlar və şagirdlərə verilən mesaj nədir? Münaqişələrdə münaqişə həll mədəniyyətini inkişaf etdirməyin yox, müharibənin həll yolu olması?





Üçüncü məqam 1915-ci il Osmanlı ermənilərinin soyqırımı məsələsidir. Yalnız azərbaycanlılar deyil, bəzi avropalı

liberal həmkarlarım da 1915-ci il erməni soyqırımı ilə Dağlıq Qarabağ münaqişəsi arasındakı əlaqələri müzakirə etməkdən çəkinirlər. Qorxurlar ki, belə bir əlaqə qurmaq soyqırıma istinad edərək Qarabağ müharibəsi zamanı erməni hərbçiləri tərəfindən törədilən cinayətlərə haqq qazandırmağa xidmət edəcək.

Keçmişdə mən də belə bir əlaqə qurmaqdan çəkinirdim, lakin sonrakı araşdırmalar çox güclü bir əlaqənin olduğunu göstərdi. Və təəccüblüdür ki, Ermənistan iki hadisə arasındakı bu əlaqəni qurmur, çünki Ermənistan Ermənistan-Türkiyə münasibətlərini Ermənistan-Azərbaycan münaqişəsindən ayırmağa çalışırdı (amma uğursuz oldu). Bu əlaqəni Türkiyə (1991-ci ildən bəri), sonra da Azərbaycan hakimiyyətləri (20 Mart 1998-ci il *Soyqırımı Qanunu*ndan bəri) qurur.[11] Soyqırımından siyasi məqsədlər üçün istifadə edilməsindən narahatlığı Hacıyevin verdiyi bəyanatdan aydın görmək olar: “Ermənistan və erməni lobbi dairələri qondarma ‘erməni soyqırımı’nı siyasi möhtəkirlik obyektinə çeviriblər. Onlar bu məqsədlə ermənilərin Cənubi Qafqazda və digər regionlarda törətdikləri cinayətləri ört-basdır etməyə çalışırlar.”[12]

Bu inkar Azərbaycana iki növ problem yaradır. Birincisi, siyasi baxımdan Azərbaycan, hətta Türkiyədən də çox, ən qatı inkarçı dövlətdir. Nümunə kimi Hacıyevin bu il 23 aprelində 1915 hadisələrini “qondarma və saxta erməni soyqırımı” kimi qiymətləndirdiyi bəyanatına baxın.[13] Müqayisə üçün deyim ki, 23 aprel 2014-cü ildən bəri Türkiyə lideri Ərdoğan daha nüanslı və diplomatikdir. O, Osmanlı ermənilərinin törəmələrinə başsağlığı verir. Bu il də Ərdoğan İstanbul Erməni Patriarxına bir məktub göndərdi və məktubda belə deyilirdi: “Birinci Dünya Müharibəsi zamanı itirdiyimiz Osmanlı ermənilərini bir daha hörmətlə anır, yaxınlarının kədərini bölüşürəm.”[14]



# Erdoğan sends letter to Armenian Patriarch, offers condolences over 1915 massacre

President Recep Tayyip Erdoğan on April 24 sent a message to Armenian Patriarch Sahak Maşalyan, offering his condolences to the descendants of Armenians who were killed by the Ottoman Army in 1915. "I remember with respect the Ottoman Armenians, who lost their lives under the harsh conditions of the First World War, and offer my condolences to their grandchildren," Erdoğan said in his message.

Saturday April 24 2021 08:42 pm

Erdoğan shakes hands with Armenian Patriarch Sahak Maşalyan at the Presidential Complex in Jan 2020 in this file photo.

**Columns**

Cansu Çamlıbel
Desperate search for a scapegoat in the Halkbank case

Mehveş Evin
Erdoğan's take on the climate crisis

Ekrem Eddy Güzeldere
Damaged Laschet vs rising Baerbock

İkincisi, amma daha əhəmiyyətlisi, sərt inkarçılığı dəstəkləyən Azərbaycan və onun ziyalıları bu gün Türkiyədəki intellektual dairələrdə inkişaf edən hadisələrdən təcrid olunublar. Türkiyəli liberal intellektuallar, eləcə də kürd intellektualları 1915-ci il ermənilərin soyqırımının (habelə aysorların və Pont yunanlarının məhvinin) tanınması məsələsinin Türkiyədə demokratikləşmə və qanunun aliliyi üçün şərt olduğunu başa düşürlər. Bu gün Qərb universitetlərində erməni soyqırımını araşdıran doktorantların əksəriyyəti etnik ermənilərdən çox etnik türk və kürdlərdir.

Uzunmüddətli perspektivdə Azərbaycanın indiki mövqeyi məğlubiyyətə məhkumdur. Mən burada irəliləyiş əldə ediləcəyinə inanıram, icazə verin bu nikbinliyimə iki səbəb göstərim: birincisi, Türkiyə intellektual debatlarının Azərbaycana təsiri var; daha vacib amil isə odur ki, mövcud hegemon diskurslara radikal və tənqidi münasibət göstərən yeni Azərbaycan intellektual nəsli yetişir.

**Qeyri-müəyyənlik**

Azərbaycanın hazırkı mövqeyində anlaşılmazlıqlar da var. Məsələn, Azərbaycan rəsmiləri deyirlər ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşıdır, ona görə də başqaları ilə eyni hüquqlara sahibdirlər. Lakin 2020-ci il müharibəsindən sonra Hadrut və Şuşi/Şuşadan olan etnik ermənilərin evlərinə və kəndlərinə qayıtmaları barədə bircə kəlmə də deyilmədi; hələ 1991-1994 müharibəsindəki etnik erməni qaçqınlarından danışmıram.

**Nəticə**

2020-ci il müharibəsindən altı ay sonra rəsmi diskursda dəyişiklikdən daha çox davamlılıq görürük. Ancaq bir qədər dəyişiklik olub. Bu gün Azərbaycanın etdiyi seçimlər qarşıdakı həftə və aylarda Ermənistandakı siyasi hadisələrə təsir edəcək. Bu seçkiqabağı dövrdə Azərbaycan ya müsbət addımlar ataraq münaqişənin həlli lehinə olan arqumentləri gücləndirəcək, ya da Ermənistan daxilindəki radikal arqumentlərə dəstək verəcək. Ermənistan siyasətinə müsbət təsir göstərmək üçün Azərbaycan dərhal hərbi əsirləri azad etməli, YUNESKO-nu çağırıb erməni mədəni irsinin qorunmasını təmin etməli və Hadrut ermənilərini evlərinə qayıtmağa dəvət etməlidir. Soyqırımla bağlı mübahisəni qoyun Türkiyə və ermənilər etsin.

Son mesajı Azərbaycandakı həmkarlarıma ünvanlayacağam. Nə olmasından asılı olmayaraq bizim hamımızın etnik, dini və siyasi kimliklərimiz var. Ancaq bizi birləşdirən bir şey də var: peşələrimiz və peşəkarlıq qürurumuz. Sosial elmlər adamları, diplomatiya və beynəlxalq münasibətlər, tarix və sosiologiya tələbələri olaraq qərar qəbul edən, müharibə və sülhün məsuliyyətini daşıyan siyasətçiləri əvəz edə bilmərik. Ancaq cavabdeh olduğumuz başqa bir şey edə bilərik – fikir və arqumentlər yaratmaq. Bu (və ya başqa) münaqişəni araşdırarkən *qarşı tərəfi*, onun qorxularını, ümidlərini və arqumentlərini də nəzərə almağa çalışın. Yalnız bundan sonra son 30 ilin münaqişə halqasından kənara addım ata bilərik.

[1] https://www.youtube.com/watch?v=2TYG8zmGBms

[2] https://president.az/articles/50738

[3] İlham Əliyevin 13 aprel 2021-ci il tarixində *Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq* konfransındakı nitqi, vaxt: 17:30.

https://www.youtube.com/watch?v=2TYG8zmGBms

[4] Ətraflı müzakirə üçün bax: Vicken Cheterian, "Karabakh Conflict After Kosovo: No Way Out?" *Nationalities Papers*, Vol. 40, Issue 5, 2013, pp. 703-720: https://www.cambridge.org/core/journals/nationalities-papers/article/abs/karabakh-conflict-after-kosovo-no-way-out/766CA140B4937FF313B1A49CE87408BE

[5] https://eurasianet.org/perspectives-azerbaijans-authoritarianism-and-bakus-military-trophies-park

[6] https://www.vice.com/en/article/akgdgk/armenia-azerbaijan-prisoners-of-war-nagorno-karabakh

[7] https://www.azernews.az/nation/174144.html

ÜDM ilə müqayisədə Azərbaycan dünyada 5.4 faiz ilə hərbi xərcləri ən yüksək olan 6-cı ölkədir. Bax: SIPRI: https://sipri.org/sites/default/files/2021-04/fs_2104_milex_0.pdf

[8] Burada daha detallı müzakirə etmişəm: https://bakuresearchinstitute.org/en/is-the-political-status-of-nagorno-karabakh-that-important/

[9] Mumları hazırlayan sənət adamlarından biri belə deyib: "Ən real görüntüləri yaratmağa çalışdıq. Biz ümumiyyətlə gözəl

fiqurlar yaratmağa çalışırıq. Ancaq bu dəfə əksinə idi. Uzun və çətin proses oldu. Onlara əyri burunlar, düz başlar və digər xüsusiyyətlər verdik.” https://oc-media.org/opinions/opinion-on-the-apologists-of-bakus-military-trophy-park/

[10] https://mfa.gov.az/en/news/7288/view

[11] Ətraflı müzakirə üçün bax: Vicken Cheterian, The Uses and Abuses of History : Genocide and the Making of the Karabakh Conflict, *Europe-Asia Studies*, Vol. 70, Issue 6, 2018, 884-903. https://www.tandfonline.com/doi/abs/10.1080/09668136.2018.1489634

[12]https://azertag.az/xeber/Hikmet_Haciyev_ABS_Numayendeler_Palatasinin_qondarma_ermeni_soyqirimi_haqqinda_qetnamesini_qerezli_ve_edaletsiz_hesab_edirik-1349449

[13] https://apa.az/az/xeber/xarici_siyaset/Hikmt-Haciyev-Umid-etmk-istrdik-ki-ABS-Administrasiyasi-tarixi-shv-yol-vermyck-639751

[14] https://www.tccb.gov.tr/en/speeches-statements/558/127694/the-message-president-recep-tayyip-erdogan-sent-to-armenian-patriarch-of-turkey-reverend-sahak-masalyan